# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASININ İCRAÇI DİREKTORUNUN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/18** **24 iyun 2020-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatasında Koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizəyə dair əməkdaşların 2020-ci il 21 iyun – 05 iyul tarixlərində işə davamiyyətinin təşkil edilməsinə dair əlavə tədbirlər barədə**

Ölkədə Koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizəyə dair Auditorlar Palatasında qabaqlayıcı tədbirlərin gücləndirilməsi, sosial məsafəni saxlamaqla əməkdaşların işə davamiyyətinin təşkil edilməsi, eyni zamanda onların əmək funksiyalarını evdən yerinə yetirilməsi şərtilə, Azərbaycan Respublikasının Baş Naziri cənab Əli Əsədovun 2020-ci il 19 iyun tarixli 10/677 nömrəli məktubunu və Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin "Azərbaycan Respublikası Auditorlar Palatasında Koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizənin təşkil edilməsnin təmin edilməsi barədə" 2020-ci il 17 mart tarixli 1/8 nömrəli sərəncamının 2-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Auditorlar Palatasının ştat vahidində nəzərdə tutulan işçilərin 20%-ə qədəri 2020-ci il 05 iyul tarixinədək əmək qanunvericiliyinə uyğun olaraq həftə içi I gündən V günədək işdə hesab edilsinlər (siyahı əlavə olunur).
2. Auditorlar Palatasının struktur bölmələrinin digər əməkdaşlarına tapşırılsın ki, 2020-ci il 05 iyul tarixinədək əmək funksiyalarını distant qaydada evdən yerinə yetirsinlər.
3. Auditorlar Palatasının karantin dövründə 2020-ci il 05 iyul tarixinədək işdə hesab ediləcək əməkdaşlarının adlı siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin yanında Operativ Qəragaha və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə təqdim edilsin.
4. Auditorlar Palatasının İcraçı direktorunun 2020-ci il 16 iyun tarixli 1/15 nömrəli "Azərbaycan Respublikasının Auditorlar Palatasında Koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizəyə dair əməkdaşların işə davamiyyətinin təşkil edilməsi barədə" sərəncamı qüvvədən düşmüş hesab edilsin.
5. Bu sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Palatanın icraçı direktoru** **Səbuhi Gülməmmədov**